**MİGA-nın (İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik) Azərbaycanda Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) Layihəsinə (13661 saylı) yatırdığı investisiyalarla bağlı narahatlıqlara dair**

**CAO (KOMPLAYNS ÜZRƏ MƏSLƏHƏTÇİ/OMBUDSMAN) QİYMƏTLƏNDİRMƏ HESABATI**

Sentyabr 2019

Beynəlxalq Maliyyə Korporasiyası və İnvestisiyalara Zəmanət üzrə Çoxtərəfli Agentlik üçün Komplayns üzrə Məsləhətçi / Ombudsmanın Ofisi
**www.cao-ombudsman.org**

**CAO haqqında**

Komplans üzrə Məsləhətçi / Ombudsmanın (CAO) ofisi Beynəlxalq Maliyyə Korporasiyası və İnvestisiyalara Zəmanət üzrə Çoxtərəfli Agentlik, habelə Dünya Bankı Qrupunun özəl sektor qolları üçün müstəqil hesabatlılıq mexanizmidir. CAO birbaşa Dünya Bankı Qrupunun Prezidentinə hesabat verir və onun vəzifəsi BMK/MİGA-nın dəstəklədiyi layihələrin təsirinə məruz qalmış insanların şikayətlərinə ədalətli, qərəzsiz və konstruktiv şəkildə baxılması, habelə bu layihələrin sosial və ətraf mühit təsirlərini gücləndirməkdən ibarətdir.

Daha ətraflı məlumat www.cao-ombudsman.org ünvanında əldə edilə bilər.

## MÜNDƏRİCAT

MÜNDƏRİCAT ..... III

QISALTMALARIN SİYAHISI ..... IV

1. İCMAL ..... 1

2. ÜMUMİ MƏLUMAT ..... **ERROR! BOOKMARK NOT DEFINED.**

    2.1 Layihə ..... 1

    2.2 Şikayət ..... 2

3. QİYMƏTLƏNDİRMƏ ÜZRƏ XÜLASƏ ..... 2

    3.1 Metodologiya ..... 2

    3.2 Mövqelər üzrə xülasə ..... 3

4. NÖVBƏTİ ADDIMLAR ..... 8

ƏLAVƏ A. CAO ŞİKAYƏTLƏRƏ BAXILMA PROSESİ ..... 8

## QISALTMALARIN SİYAHISI

| | |
|---|---|
| BOTAŞ | Boru Hatları ile Petrol Taşima A.Ş. |
| BP | Britiş Petroleum (Şah Dəniz) Limited |
| CAO | Komplayns üzrə Məsləhətçi/Ombudsmanın ofisi |
| HGA | Yerləşmə ölkəsi ilə müqavilə |
| BMK | Beynəlxalq Maliyyə Korporasiyası |
| MIGA | İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik |
| AM | Anlaşma Memorandumları |
| NHMT | Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı |
| CQBK | Cənubi Qafqaz Boru Kəməri |
| CQBKG | Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi |
| CQD | “Cənub Qaz Dəhlizi” QSC |
| TAP | Trans-Adriatik Boru Kəməri |
| TANAP | Trans-Anadolu Təbii Qaz Boru Kəməri |

## 1. İCMAL

26 oktyabr 2018-ci il tarixdə Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının (NHMT) dəstəyi ilə Azərbaycanın Şəmkir rayonunun Qaracəmirli kəndinin 9 nəfər sakini ("Şikayətçilər) CAO-ya şikayətlə müraciət etmişdir. Şikayət həmin şəxslərin torpaq sahələrindən keçən Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihəsi çərçivəsində torpaq sahələri üçün təzminatın verilməsi və məsləhətləşmələr kimi məsələləri əhatə edir.

CQBKG Cənub Qaz Dəhlizi dəyər zəncirinin bir hissəsidir. Bu layihə Azərbaycandan Gürcüstana, İnvestisiya Zəmanətləri üzrə Çoxtərəfli Agentlik (MİGA) tərəfindən dəstək göstərilən Trans-Anadolu Təbii Qaz Boru Kəmərinə (TANAP) ("Layihə") birləşdiyi Gürcüstan-Türkiyə sərhədinə kimi uzanan boru kəmərini əhatə edir.

MIGA TANAP boru kəmərində öz payını maliyyələşdirməsi üçün Azərbaycanın birgə investisiya şirkəti olan (TANAP Layihəsinə böyük paya sahib olmaqla nəzarət edən) Cənub Qaz Dəhlizi Qapalı Səhmdar Cəmiyyətinə (CQD) kommersiya bankları tərəfindən təmin edilən kredit zəmanəti vermişdir. CQD Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) birgə investisiya şirkətidir. TANAP Doğalgaz İletim A.Ş (xüsusi təyinatlı şirkət) TANAP Layihəsinin idarə edilməsini həyata keçirir. CQD bu xüsusi məqsədli şirkətin səhmlərinin böyük hissəsinə sahibdir və digər səhmdarlara Türkiyənin dövlət qaz şirkəti BOTAŞ, SOCAR Türkiyə Enerji A.Ş., həmçinin BP ("Şirkət") daxildir. BP CQBKG layihəsinin texniki operatorudur.

19 noyabr 2018-ci il tarixdə CAO bu şikayətin özünün üç uyğunluq meyarına cavab verdiyini müəyyən etmişdir. CAO-nun qiymətləndirməsi zamanı Şikayətçilər mübahisələrin həlli prosesi çərçivəsində mübahisənin həll edilməsinə istəkli olduqlarını bildirdilər, amma Şirkət bu şikayətə CAO-nun Komplayns (uyğunluq) funksiyası çərçivəsində baxılmasına üstünlük vermişdir. Könüllü proses olan mübahisələrin həlli prosesində razılığa gələ bilmədiyinə görə BMK-nın fəaliyyətinin qiymətləndirilməsi üçün şikayət CAO-nun Əməliyyat Təlimatlarına uyğun olaraq CAO-nun Komplayns (uyğunluq) funksiyası çərçivəsində baxılacaqdır.

## 2. ÜMUMİ MƏLUMAT

### 2.1 Layihə

27 iyun 2018-ci il tarixdə MİGA Layihə üzrə Türkiyədə öz payını maliyyələşirməsi üçün CQD-yə Crédit Agricole Corporate, Investment Bank, Societé Générale, Citibank N.A., Banco Santander, S.A., və AKA Ausfuhrkredit-Gesellschaft mbH-dan (birlikdə "Kommersiya bankları") olan borclarla bağlı 779,773,701.89 ABŞ dolları və 286,149,783.65 avro (müvafiq olaraq 330,923,769 ABŞ dolları) məbləği əhatə edən zəmanət təqdim etməyə razılıq verir.[1] MIGA-nın Layihə üzrə Ətraf Mühit üzrə kateqoriyası A-dır.

TANAP boru kəməri ilkin olaraq Azərbaycanın Şahdəniz qaz yatağından qazı Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya vasitəsilə İtaliyaya nəql etmək üçün tikilmiş Cənub Qaz Dəhlizi adlanan daha böyük dəyər zəncirinin bir hissəsidir. Cənub Qaz Dəhlizinə aşağıdakılar daxildir: (i) Azərbaycanın Şahdəniz qaz yatağı (BP tərəfindən istismar edilir), (ii) Cənubi Qafqaz Boru Kəməri (CQBK), habelə onun Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyədək genişləndirilməsi (CQBKG), (iii) Türkiyə vasitəsilə Yunanıstana TANAP boru kəməri, və (iv)

[1] MİGA-nın veb-saytına və layihənin təsvirinə bax: https://www.miga.org/project/trans-anatolian-pipeline

Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə Cənubi İtaliyaya Trans-Adriatik Boru Kəməri (TAP).[2]

MİGA-nın zəmanəti sırf Cənub Qaz Dəhlizinin TANAP hissəsi ilə bağlı verilsə də, Şahdəniz qaz yatağı və CQBKG (Azərbaycan və Gürcüstün ərazisindən keçən) Layihənin əlaqəli təsərrüfat hesab edilir.[3] Bu şikayət Cənub Qaz Dəhlizi Layihəsinin CQBKG hissəsi ilə bağlıdır.

CQD - səhmdarları Azərbaycan Respublikası Energetika Nazirliyi (51%) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (49%) olan qapalı səhmdar cəmiyyətidir.[4] Layihə boru kəmərinin tikintisi, mülkiyyəti və istismarı məqsədilə TANAP Doğalgaz İletim A.Ş (xüsusi təyinatlı şirkət) tərəfindən hazırlanmışdır. Səhmlərin 51%-i CQD-yə məxsusdur. Digər səhmdarlara isə Türkiyənin dövlət qaz şirkəti olan BOTAŞ, SOCAR Türkiyə Enerji A.Ş. və BP daxildir. BP, həmçinin, Azərbaycanın Şahdəniz qaz yatağını istismar edir.[5]

MİGA-ya əsasən, Layihə Azərbaycana Şahdəniz qaz yatağından hasil edilən qazı istifadə etməyə, qaz ixracını üç qat artırmağa və coğrafi əhatəsini genişləndirməyə imkan verəcəkdir. Həmçinin, MİGA-ya istinadən, Layihə Türkiyə və Avropanın enerji təchizatının şaxələnməsini və təhlükəsizliyini artıracaqdır. Layihə tikinti, istismar, yardımçı xidmətlər, boru istehsalı və digər fəaliyyətlər vasitəsilə birbaşa və dolayı yolla məşğulluğun artırılmasına xidmət edəcəkdir.[6]

### 2.2 Şikayət

26 oktyabr 2018-ci il tarixdə NHMT-nin dəstəyi ilə Azərbaycanın Şəmkir rayonunun Qaracəmirli kəndindən olan Şikayətçilər CAO-ya şikayətlə müraciət etmişdir. Şikayət həmin şəxslərin torpaq sahələrindən keçən CQBKG layihəsi çərçivəsində torpaq sahələri üçün təzminatın verilməsi və məsləhətləşmələr kimi məsələləri əhatə edir. Şikayətçilər Qaracəmirli kəndindən olan 16 nəfər sakindir. Şikayətdə və qiymətləndirmə zamanı qeyd edilən məsələlərlə bağlı daha ətraflı aşağıdakı 3.2 bölməsində tanış olmaq olar.

## 3. QİYMƏTLƏNDİRMƏ ÜZRƏ XÜLASƏ

### 3.1 Metodologiya

Qiymətləndirmənin məqsədi şikayətin mahiyyəti üzrə mühakimə yürütmədən müxtəlif əlaqəli tərəflərdən məlumatları toplamaqla Şikayətçilər tərəfindən qaldırılmış məsələ və problemlər barədə daha yaxşı təsəvvür formalaşdırmaqdan ibarətdir. Qiymətləndirmə, həmçinin, BMK-nın fəaliyyətinin qiymətləndirilməsi üçün Şikayətçilərin və Şirkətin hansı CAO prosesini – Mübahisələrin Həlli prosesi yoxsa Komplaynsı (Qaydalara Əməletmə) funksiyasını tətbiq etmək istədiklərini müəyyən etməyə çalışır (CAO-nun şikayətlərə baxılma prosesi ilə bağlı A Əlavəsinə bax).

Bu halda, CAO-nun şikayəti qiymətləndirməsi özündə aşağıdakılar ehtiva etmişdir:

- MİGA layihə sənədlərinin bəzilərinin təhlili;

---

[2] Trans-Anadolu Təbii Qaz Boru Kəməri Layihəsi ilə bağlı MİGA-nın Ətraf Mühit və Sosial Qiymətləndirmə Hesabatına bax: https://www.miga.org/sites/default/files/archive/Documents/SPGDisclosures/ESRS%20TANAP.pdf

[3] A bölməsinin sonunda, səhifə 2-yə bax

[4] CQD-nin saytına baxın: https://www.sgc.az/en/about

[5] Trans-Anadolu Təbii Qaz Boru Kəməri Layihəsi ilə bağlı MİGA-nın Ətraf Mühit və Sosial Baxış İcmalına bax, səh.2, para.2, https://www.miga.org/sites/default/files/archive/Documents/SPGDisclosures/ESRS%20TANAP.pdf

[6] MİGA-nın veb-saytında inkişaf təsiri bölməsinişə bax https://www.miga.org/project/trans-anatolian-pipeline

- MİGA heyəti ilə telefon danışıqları;
- Şikayətçilər və onları dəstəkləyən NHMT heyəti ilə onlayn və üzbəüz görüşlər;
- Şikayətçilərin torpaq sahələrini görmək məqsədilə Qaracəmirli kəndinə səfər;
- Bakıda BP və CQD nümayəndələri ilə telefon danışıqları və üzbəüz görüşlər; və
- BP və CQD-nin təqdim etdiyi sənədlərin təhlili.

### 3.2 Mövqelərin xülasəsi

***Şikayətçilərin mövqeyi***

Şikayətçilər qeyd edirlər ki, 2014-cü ildə BP şirkəti onların kəndinin ərazisindən keçəcək CQBKG boru kəmərinin tikintisi ilə bağlı məlumatlandırmaq məqsədilə Şəmkir rayonu Qaracəmirli kənd icmasını görüşə dəvət etmişdir. Şikayətçilərə istinadən, BP sakinlərə bildirmişdir ki, CQBKG boru kəməri onların torpaq sahələrindən keçdiyi təqdirdə, BP müvafiq sakinlərlə icarə müqavilələri bağlayacaqdır. Onlar, həmçinin bildirirlər ki, təzminat barədə məsələ qaldırdıqda BP onlara bununla bağlı narahatçılığa heç bir əsasın olmadığını və təzminat məbləğinin müəyyənləşdirilməsi zamanı onların hüquqlarının nəzərə alınacağını bildirmişdir.

Şikayətin qiymətləndirilməsi zamanı Şikayətçilər CQBKG boru kəmərinin quraşdırılması ilə bağlı aşağıda dörd kateqoriyada izahı verilən məsələləri qaldırdılar:

a) Torpaq sahəsinin icarəsi üçün təzminatın verilməməsi;
b) Torpaq üzərində olan məhsullar üçün qismən təzminatın verilməsi;
c) İcarə müqavilələrini imzalamaq məcburiyyəti, habelə ödəmədə gecikmələr və valyutanın devalvasiyası nəticəsində yaranmış zərər; və
d) Qeyri-adekvat məsləhətləşmə.

#### a) Torpaq sahəsinin icarəsi üçün təzminatın verilməməsi

Şikayətçilərin bəziləri qeyd etmişdir ki, 2007-ci ildə yerli bələdiyyə onları sahib olduğu ərazilərdən (“ilkin torpaqlar”) hazırkı yerləşmə yerinə (“köçürmə torpaqları”) köçürmüşdür (CQBKG sonradan bu ərazidən keçmişdir). Köçürmə torpaqları ilkin torpaqlara yaxın yerləşən ferma sahələridir. Bələdiyyə doqquz şikayətçinin ilkin torpaqlarını yaşayış ərazisinə çevirmiş və onlara köçürüldükləri yerlər üçün yeni mülkiyyət sənədləri təqdim etmişdir. Şikayətçilər öz bitkilərini yetişdirmək üçün yeni köçürmə torpaqlarından istifadə etməyə başladılar.

Şikayətçilərin verdiyi məlumata əsasən, CQBKG boru kəməri tikilən zaman BP onlara bildirmişdir ki, köçürmə torpaqları üçün bələdiyyənin onlara təqdim etdiyi yeni mülkiyyət sənədləri saxtadır və onların hər birinin hansı mükllərə sahib olmaları ilə bağlı xüsusi koordinatlar yoxdur. Şikayətçilər bildirir ki, BP bundan öncəki boru kəmərlərinin inşası zamanı köçürmə torpaqları üzərində onların mülkiyyət hüquqlarını tanısa da, CQBKG-nin inşası zamanı fərqli davranmışdır.

Şikayətçilər saxta sənədlərin verilməsi ilə bağlı hökumət qurumları və məhkəmələr qarşısında məsələ qaldırdılar. Nəticədə, saxta sənədlər ləğv edildi. Bu o deməkdir ki, şikayətçilərin ilkin torpaqları yenə onların mülkiyyətinə keçdi. Lakin onlar qeyd etdilər ki, bu məqamda onların ilkin torpaqları artıq digər sakinlər tərəfindən yaşayış məqsədilə istifadə olunmaqda idi və tam hüquqlu mülkiyyətçi olsalar belə artıq o torpaqları hazırkı sakinlərindən geri ala bilmədilər. Müvafiq olaraq, bələdiyyə köçürmə torpaqlarına sahib olmağa icazə versə də, onlara həmin torpaqlar üzərində mülkiyyət hüquqlarını təsdiq edən sənədləri verməkdən imtina etmişdir.

Şikayətçilərin sözlərinə görə, BP ilə 51 illik icarə müqaviləsi bağlayaraq həm torpaq sahələrinin icarəsi, həm də torpaq üzərində olan məhsullar üçün təzminat əldə edən sakinlərdən fərqli olaraq, onlar yalnız məhsullar üçün təzminat ala bilmişdir. BP onlara bildirmişdir ki, köçürmə torpaqları şikayətçilərin mülkiyyətində olmadığından onlar icarə üçün təzminat almaq hüququna malik deyillər. Köçürmə torpaqlarının icarəsi üçün təzminat həmin torpaqların qanuni mülkiyyətçisi hesab olunan bələdiyyəyə ödənilmişdir.

Şikayətçilərin istəyi ondan ibarətdir ki, BP onlara köçürmə torpaqları üzərində mülkiyyət sənədlərini əldə etməkdə köməklik göstərsin və daha sonra onlar BP ilə icarə müqaviləsi bağlayaraq müvafiq qaydada təzminat əldə edə bilsinlər. Onlar həm də qeyd edir ki, eyni ərazidə köçürmə torpaqlarından istifadə edən, lakin Şikayətçilər arasında yer almayan bəzi şəxslər var ki, mülkiyyət sənədlərini vaxtında əldə edə bilmiş və BP ilə 51 illik icarə müqaviləsi bağlamışdır.

**b) Torpaq üzərində olan məhsullar üçün qismən təzminatın verilməsi**

Şikayətçilər qeyd edir ki, onların heç də hamısı köçürmə torpaqları üzərində olan məhsular üçün 100 faiz təzminat ala bilməmişdir. Onların iddiasına əsasən, BP üzərində məhsulların olduğu torpaq sahələrinin bəzi hissələrinin digər torpaq mülkiyyətçisinə aid olduğunu əsas gətirərək Şikayətçilərin sahib olduğu köçürmə torpaq sahələrinin koordinatlarını tanımamışdır. Nəticədə, BP məhsul üçün nəzərdə tutulan təziminatın bir hissəsini digər şəxslərə ödəmişdir.

Şikayətçilər iddia edirlər ki, digər hallarda BP-nin peyk görüntüləri onların əkin sahələrini tam göstərmədiyi üçün onların məhsulları üçün nəzərdə tutulan məbləğin yalnız 10 faizini əldə etmişdirlər.

**c) İcarə müqavilələrini imzalamaq məcburiyyəti, habelə ödəmədə gecikmələr və valyutanın devalvasiyası nəticəsində yaranmış zərər**

Şikayətçilərin sözlərinə görə, onlar boru kəmərinin inşası ilə bağlı məlumatsız idilər və icarə müqavilələrini imzalamağa məcbur edilmişlər. Onlar qeyd edirlər ki, torpaq mülkiyyətçiləri və BP arasında CQBKG boru kəmərinin inşası ilə bağlı ilk məlumatlandırma iclası 2014-cü ildə baş tutmuşdur. Həmin iclasda torpaq mülkiyyətçilərinə CQBKG boru kəmərinin inşası başa çatdırılanadək torpaqlarını əkib-becərmək BP tərəfindən qadağan edilmişdir. Şikayətçilər daha sonra bildirirlər ki, 51 illik icarə müqaviləsini 2015-ci ilin fevral ayında imzalamışlar. Onların iddiasına əsasən, icarə müqavilələrini imzalamağa məcbur edilmişlər və əgər müqavilə şərtlərini bəyənməsələr onların torpaq sahələri istənilən halda CQBKG boru kəməri üçün istifadə ediləcək və sakinlər təzminatı başqa yerdə axtarmalı olacaqlar. Torpaq mülkiyyətçilərinin imzaladıqları icarə müqavilələrində CQBKG boru kəmərinin inşası başa çatdırıldıqdan sonra mülkiyyətçilərin torpağı istifadəsinə dair 13 məhdudiyyət yer alır.

Eyni qrup Şikayətçilər həm də qeyd edirlər ki, icarə müqaviləsinin imzalanmasından sonra valyutanın devalvasiyası və ödəmələrin gecikməsi səbəbilə zərər görmüşlər. Onların sözlərinə görə, BP ilə bağlanmış icarə müqavilələrində CQBKG boru kəmərinin inşa edildiyi üç il ərzində torpaqdan istifadə edə bilməmələri nəticəsində dəymiş zərərə görə təzminat verilməsi də nəzərdə tutulmuşdur. Müqavilədə, həmçinin, CQBKG boru kəmərinin torpaq sahəsindən keçdiyinə və boru kəməri inşa edildikdən sonra tətbiq edilən 13 məhdudiyyətə görə 51 illik icarə haqqının ödənilməsi də nəzərdə tutulmuşdur. Şikayətçilər qeyd edirlər ki, icarə müqaviləsinin imzalanması zamanı ABŞ dolları və Azərbaycan manatı arasında mübadilə məzənnəsi 1 ABŞ dolları = 0,78 AZN olmuşdur. Lakin Şikayətçilər BP-nin ödəmələri gecikdirdiyini iddia edirlər.

Ödəmələrin nə səbəblə verilmədiyi ilə bağlı müraciət etdikdə, BP CQBKG boru kəmərinin onların torpaq sahələrinə çatdığı zaman ödənişlərin ediləcəyini bildirmişdir.

Şikayətçilər iddia edir ki, icarə müqavilələrinin bağlanmasından səkkiz ay sonra ödəmələrin aparıldığı an üçün manat iki dəfə dəyərini itirmiş və 1 ABŞ dolları = 1,55 AZN olmaqla satılırdı. Bu isə torpaq mülkiyyətçilərinin zərər görməsi ilə nəticələndi. Şikayətçilər həm də qeyd edirlər ki, boru kəmərinin inşası iki ay gec başa çatmışdır. Lakin BP tikintinin gecikməsi ilə əlaqədar əlavə altı aylıq təzminat ödəmişdir.

Şikayətçilərin istəyi odur ki, BP təzminatın gec ödənilməsi, habelə icarə müqaviləsinin imzalanması və faktiki ödəmə tarixi arasında valyutanın devalvasiyası nəticəsində dəymiş zərəri qarşılasın. Onlar BP-nin icarə müqaviləsinin icrası tarixinə olan məzənnə ilə təzminat aldıqları (məhsullar və torpaq icarəsi) tarixə olan məzənnə arasındakı fərqi ödəməsini istəyirlər. Bununla yanaşı, Şikayətçilər boru kəmərləri ilə bağlı bundan əvvəlki müqavilə şərtlərinin ABŞ dolları ilə ifadə edildiyi halda, nə üçün icarə müqavilələrin şərtlərinin manatla (AZN) ifadə edilməsi məsələsini qaldırırlar. Onların fikrincə, BP devalvasiya olacağını bildiyi üçün müqavilə manatla imzalanmışdır və müqavilələr ABŞ dolları ilə imzalansa idi onlar heç bir zərərlə qarşılaşmazdılar.

### d) Qeyri-adekvat məsləhətləşmə

Şikayətçilərin CAO-ya verdikləri məlumata əsasən, CQBKG ilə bağlı məlumat sessiyasının 2014-cü ildə keçirilməsinə baxmayaraq, Layihə ilə bağlı yetərli məlumat olmamışdır. Bununla yanaşı, onlar qeyd edir ki, BP ilə icarə müqaviləsi bağlamaqla bağlı onlara seçim hüququ verilməmişdir. Onlar CAO-ya bildirdilər ki, bu məsələ ilə bağlı başqa yolları yox idi və onlara müqavilə şərtləri və ya proseslə bağlı hər hansı narazılıqları olarsa, təzminatı başqa yerdə axtarmalı olacaqlarını, CQBKG boru kəmərinin isə heç nəyə baxmayaraq onların torpaq sahələrində inşa ediləcəyi deyilmişdir. Şikayətçilər müqavilə və CQBKG boru kəmərinin inşası zamanı yerinə yetiriləcək proseslə bağlı tam təsəvvürə malik olmadıqlarını da qeyd etmişlər.

### *Şirkətin mövqeyi*

İşin qiymətləndirilməsi zamanı CAO heyəti CQD və BP ilə əlaqə saxlamışdır. CQD-nin CAO-ya verdiyi məlumata əsasən, onlar Azərbaycandan Gürcüstan və Türkiyəyə Şahdəniz qazını ixrac etmək məqsədilə inşa edilmiş Cənubi Qafqaz Boru Kəmərində (CQBK) 6,67% iştirak payına malik olan kiçik səhmdardır. CQD bildirmişdir ki, onlar CQBK Layihəsinin fəaliyyətində iştirak etməməklə yanaşı, CQBK-nin gündəlik idarə edilməsi və nəzarətində də yer almırlar. CQD-nin məlumatına əsasən, BP CQBK layihəsinin texniki operatoru olmaqla yanaşı, CQBK və CQBKG boru kəmərlərinin tikintisinə cavabdehdir. Həmçinin onlar CQD-nin torpaq sahələrinin alışı və müvafiq təzminatın verilməsi ilə bağlı yerli qurumlarla və torpaq mülkiyyətçiləri/sahibləri ilə hər hansı müzakirələr və məsələlərdə iştirak etməmişlər.

5 fevral 2019-cu il tarixdə CQD BP-nin şikayətə cavab olaraq, adları şikayətdə yer alan 4 (dörd) nəfər Şikayətçinin torpaq sahələrinin alışı və təzminatı prosesini izah edən məktubunu CAO-ya yönləndirmişdir.

Qiymətləndirmə səfəri zamanı CAO Şikayətçilərin qaldırdığı dörd kateqoriya məsələlərə cavab verən BP nümayəndələri ilə görüşmüşdür. BP torpaq ərazilərinin satın alınması prosesinin təsvirindən başlayaraq qeyd etmişdir ki, bu proses Yerləşmə Ölkəsi Hökuməti ilə bağlanmış

Müqaviləyə uyğun olaraq həyata keçirilir. Onlar izah etdi ki, Müqaviləyə əsasən, BP-nin rolu boru kəmərinin keçəcəyi ərazilərin müəyyən edilərək hökumətə bildirilməsindən ibarətdir. Bundan sonra, dövlət müvafiq torpaq sahələrinin qanuni mülkiyyətçilərini müəyyən edərək onları layihə məqsədləri ilə satın alır. Dövləti təmsil edən yerli icra qurumu Müqaviləyə uyğun olaraq torpaq mülkiyyətçiləri ilə müqavilələr imzalayır. Dövlət Energetika Nazirliyinə satın alınmış bütün torpaq sahələrini CQBK və CQBKG-yə ötürən müqavilə bağlamaq səlahiyyəti verir.

BP daha sonra izah edərək bildirir ki, CQBKG-nin texniki operatoru olaraq Dövlət tərəfindən onlara Dövlət tərəfindən təsdiq edilmiş torpaq mülkiyyətçilərinin xəritəsi və torpaq sahələrinin yerləri təqdim edilmişdir. Bununla, onlar xəritələrə əsasən həmin yerlərə səfər edərək və hər bir qanuni torpaq mülkiyyətçisi ilə öhdəlik yaratmayan anlaşma memorandumları imzaladılar. Anlaşma memorandumları məhsul inventarını (mövcüdluğunu) və müvafiq Anlaşma Memorandumunun imzalanması tarixində ərazinin üzərində olan binaları əhatə edir. Anlaşma Memorandumununda əsas fikir ondan ibarətdir ki, torpaq mülkiyyətçisinə edilən hər hansı ödəniş Anlaşma Memorandumunun imzalanması tarixində ərazinin üzərində olan məhsul və binalara əsaslanır.

BP izah etmişdir ki, bu halda şikayətçilərin bəziləri ilə Anlaşma Memorandumu 2014-cü ilin aprel ayında bağlanmış və Şikayətçilərin iddiasının əksinə olaraq torpaqlarını əkib-becərməklə bağlı onlara hər hansı qadağa tətbiq edilməmişdir. Bundan əlavə, Anlaşma Memorandumu heç birinin tərəfin üzərinə torpağını Layihə üçün məcburən ayırmaq öhdəliyi qoyulmamışdı. Şikayətçilər könüllü surətdə Anlaşma Memorandumlarını imzalayıblar, bundan sonra isə Dövlət CQBKG-nin təsirinə məruz qalmış hər bir torpaq mülkiyyətçisi ilə icarə müqavilələri bağlamışdır. BP Dövlətdən əldə edilmiş məlumata uyğun olaraq Dövlətin adından ödənişləri qanuni torpaq mülkiyyətçilərinə etmişdir.

### a) Torpaq sahəsinin icarəsi üçün təzminatın verilməməsi

BP saxta sənədlər səbəbilə torpaq sahəsi üçün təzminatın verilməməsi məsələsi ilə bağlı qeyd etmişdir ki, onlar belə bir halın mövcudluğundan məlumatsızdırlar. Dövlətin verdiyi məlumatlara əsasən və qanunvericiliyə uyğun olaraq BP yalnız torpağın qanuni mülkiyyətçilərinə icarə təzminatı ödədiyini bildirmişdir. Bu baxımdan, Dövlətin verdiyi məlumatlara əsasən, torpağın tanınan və rəsmi qeydiyyata alınan mülkiyyətçisi yerli bələdiyyə olduğundan, BP ödəməni bələdiyyəyə ödəməli olmuşdur.

Mülkiyyət sənədləri ilə bağlı BP qeyd edir ki, onların sakinlərə mülkiyyət sənədləri təqdim etmək səlahiyyəti yoxdur. Onlar bildirir ki, bənzər hallarda icma üzvlərinə öz torpaq sahələrinin layihə təsirinə məruz qalmış hissələri ilə bağlı mülkiyyət sənədlərini əldə etmələri ilə üçün köməklik göstərməsi məqsədilə Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsinə (ASAN) müraciət edilmişdir. Həmçinin, qeyd edilir ki, bundan əvvəlki boru kəmərləri ilə bağlı yaşanmış hallara yol verməmək məqsədilə onlar yalnız reyestrdən keçmiş mülkiyyətçilərin ödəniş almaq hüququnu tanımıışdır.

### b) Torpaq üzərində olan məhsullar üçün qismən təzminatın verilməsi

BP qeyd edir ki, (a) bəndində qeyd edilənə bənzər qaydada, qanuni torpaq mülkiyyətçiləri və torpaq sahələrinin yerləşməsi barədə məlumatlar onlara Dövlət tərəfindən təqdim edilmişdir. Onlar ərazidə olan məhsulun həcmini müəyyən etmək məqsədilə yerində araşdırma fotoşəkilləri və peyk görüntülərindən istifadə etmişdirlər. Ödəmənin özünü qanuni mülkiyyətçi

hesab edən şəxsə yox, digər bir şəxsə edilməsinin səbəbi isə rəsmi qeydiyyatdır və peyk görüntüləri ərazinin üzərində olanları göstərmişdir.

Əlavə olaraq, BP bildirmişdir ki, onların şikayətlərə yerində baxılması mexanizmi olmuşdur və ödəmədən narazı qalmış hər hansı torpaq mülkiyyətçisi bununla bağlı şikayət təqdim edə bilərdi. Onlar cəmi 1 nəfərdən şikayət qəbul etmişlər.

c) **İcarə müqavilələrini imzalamaq məcburiyyəti, habelə ödəmədə gecikmələr və valyutanın devalvasiyası nəticəsində yaranmış zərər**

BP izah edir ki, Şikayətçilər icarə müqavilələri və ya məhsul üçün təzminat müqavilələrinə uyğun olaraq ödəniş əldə etmişdirlər. Onlara müqavilədə qeyd edildiyi qaydada, manatla ödəniş edilmişdir. Müqavilənin niyə ABŞ dolları ilə deyil, manatla bağlanmasına gəldikdə isə, BP qeyd edir ki, bunun səbəbi hər iki tərəfin yerli şəxslər (Dövlət və fərdi şəxslər (yerli torpaq mülkiyyətçiləri)) olmasıdır. Müqavilə tərəflərinin hər ikisi yerli şəxslər olduqda Azərbaycan qanunvericiliyi ABŞ dolları ilə müqavilə bağlanmasını qadağan edir.

BP, həmçinin, bildirir ki, onlar hər bir şəxslə ayrı-ayrılıqda təzminat məbləğini müzakirə etməyiblər, belə ki, təlimatlar əvvəlcədən müstəqil qiymətləndirici tərəfindən təsdiq edilmişdir. Təlimatlara əsasən, sakinlərin torpağın icarə haqqını, yaşayış şəraitinin bərpası haqqını, məhsullar üçün təzminatı və torpaqdan istifadəyə dair məhdudiyyətlərlə bağlı təzminat alması nəzərdə tutulur. Əlavə olaraq, sakinlər əmlak üzərində dəyərə malik olan istənilən obyekt üçün də pul almalıdırlar. Tərəflərə bu təlimatlarla bağlı əvvəlcədən (2014-cü ildə) məlumat verilmişdir.

BP izah edir ki, icarə müqavilələrinə əsasən təzminat 2016-cı ilin fevral ayına və ya BP-nin torpaq ərazisinə daxil olduğu tarixdə (ən son hansı olarsa) ödənilməlidir. Onların qeydiyyatına əsasən, bütün sakinlərə ödəmələr ərazilərinə daxil olmazdan əvvəl edilmişdir. BP bir daha vurğulayır ki, bu təlimatlarla bağlı hər hansı şikayət və ya problem olmamış, sakinlər giriş tarixində torpaq sahəsinə giriş müqaviləsini imzalamışdırlar.

BP qeyd edir ki, devalvasiya xoşagəlməz bir hal idi və bütövlükdə ölkəyə öz təsirini göstərdi. Lakin bu xüsusi halla bağlı ödəmə icarə müqaviləsinə uyğun olaraq və icarə müqaviləsində razılaşdırılmış vaxta əsasən manatla aparılmışdır.

BP Şikayətçiləri şikayət mexanizmindən yararlanmağa çağırdı və nümunə olaraq qeyd etdi ki, digər rayonlarda öz torpaqlarını icarəyə vermək istəməyən torpaq sahibləri olmuş və nəticədə BP boru kəmərinin istiqamətinə dəyişiklik edəcəkdir.

d) **Qeyri-adekvat məsləhətləşmə**

BP qeyd etdi ki, icmanı boru kəməri ilə bağlı məlumalandırmaq məqsədilə 2014-cü ildə onlarla birlikdə məlumatlandırma sessiyası keçirilmişdir. Təzminatın təyin edilməsi ilə bağlı hər kəsə Torpaq Sahələrinin Alışı və Təzminat Təlimatı (TSATT) təqdim edilmişdir. Həmçinin onu da bildirmişdir ki, boru kəməri ilə bağlı məlumatın verilməsi və təzminat məbləğinin müzakirəsi məqsədilə torpaq mülkiyyətçiləri ilə 2015-ci ildə ikinci məsləhətləşmə sessiyası keçirilmişdir. Dövlətlə icarə müqaviləsinə daxil olmaqla bağlı heç bir torpaq mülkiyyətçisinin üzərinə öhdəlik qoyulmamışdır. Təzminat məbləği müstəqil qiymətləndirici tərəfindən əvvəlcədən müəyyən edilmişdir. BP-nin sözlərinə görə, torpaq mülkiyyətçiləri təklif edilən təzminat məbləği ilə razılaşmaq məcburiyyətində deyildilər və bəzi torpaq mülkiyyətçiləri ikin olaraq məbləğlə razılaşmayaraq öz torpaqlarını Layihəyə icarəyə verməkdən imtina etmişlər.

BP CAO-ya bildirdi ki, onların çox ciddi şikayətlərə baxılma mexanizmi var və insanlar yazılı və ya şifahi qaydada şikayətlərini təqdim edə bilərlər. Onlar məsləhətləşmə prosesi çərçivəsində şikayətlər almış və bu mexanizm vasitəsilə onların həllinə nail olmuşlar. BP daha sonra qeyd etdi ki, torpaq mülkiyyətçisi Layihə üçün zəruri olan torpaq sahəsini könüllü qaydada icarəyə verməyə razılıq vermədikdə Dövlətin torpağın məcburi qaydada satın alınması mexanizmi mövcuddur. Bu halda, torpağın məcburi qaydada satın alınması mexanizmi tətbiq edilməmiş, Dövlətlə müqavilə imzalanmış bütün torpaq mülkiyyətçiləri bunu könüllü qaydada etmişlər.

## 4. NÖVBƏTİ ADDIMLAR

CAO-nun şikayəti qiymətləndirməsi zamanı və daxili müzakirələrdən sonra Şirkət CAO-ya məlumat verərək bildirmişdir ki, onlar şikayətə CAO-nun Komplayns (uyğunluq) funksiyası çərçivəsində baxılmasını istərdi. Şikayətçilər mübahisənin həlli prosesinə açıq olduqlarını bildirsə də, bu proses hər iki tərəf üçün könüllü prosesdir və buna görə də, bu prosesin həyata keçirilməsi üçün qarşılıqlı razılaşma olmalıdır. Buna görə də, CAO-nun Əməliyyat Təlimatlarına uyğun olaraq BMK-nın ətraf mühit və sosial təhlil qiymətləndirməsi üçün şikayət CAO-nun Komplayns (uyğunluq) funksiyası çərçivəsində baxışa verilir.

## ƏLAVƏ A. CAO ŞİKAYƏTLƏRƏ BAXILMA PROSESİ

CAO şikayəti uyğun hesab etdiyi halda, CAO-nun mübahisənin həlli üzrə mütəxəssisləri ilkin qiymətləndirmə aparırlar. CAO qiymətləndirməsinin məqsədi: (1) şikayətçi(lər) tərəfindən qaldırılmış məsələ və problemlərin aydınlaşdırılması; (2) əlaqəli tərəflərin vəziyyəti necə görmələrinə dair məlumatların toplanması; və (3) əlaqəli tərəflərin yenidən müraciət imkanlarını anlamalarına köməklik göstərmək və onların CAO-nun Mübahisənin həlli funksiyası vasitəsilə birgə həll, yoxsa işə CAO-nun Komplayns funksiyası tərəfindən yenidən baxılmasını istədiklərini müəyyən etmək.

CAO-nun Əməliyyat Təlimatlarına[7] əsasən, daxil olan şikayətlə bağlı aşağıdakı addımlar atılır:

Mərhələ 1: Şikayətin daxil olmasını **qəbul etmək**.

Mərhələ 2: **Uyğunluq:** Şikayətin CAO-nun səlahiyyəti çərçivəsində qiymətləndirilməsi üçün uyğunluğunun müəyyən edilməsi (15 iş günündən çox olmamaqla).

Mərhələ 3: **CAO qiymətləndirməsi:** Məsələlərin qiymətləndirilməsi və əlaqəli tərəflərin anlamalarına köməklik göstərilməsi, habelə onların CAO-nun Mübahisənin həlli funksiyası vasitəsilə birgə razılığa nail olunmasını, ya CAO-nun Komplayns funksiyası vasitəsilə BMK-nın/MİGA-nın ətraf mühit və sosial məsələlərdə əməletmə təmin olunmasını nəzərdən keçirməklə işə baxılmasını istəmələrinin müəyyən edilməsi. Qiymətləndirmə maksimum 120 iş günü çəkə bilər.

Mərhələ 4: **Razılaşmanın təşviqi**: Tərəflər əməkdaşlıq prosesini seçərsə, CAO-nun Mübahisənin həlli mexanizmı tətbiq edilir. Mübahisənin həlli prosesi, bir qayda olaraq tərəflər arasında imzalanmış Anlaşma Memorandumuna və/və ya qarşılıqlı razılaşmaya əsaslanır və onunla tənzimlənir. Buraya razılaşma müqaviləsinə və ya qarşılıqlı şəkildə razılaşdırılmış və müvafiq hədəflərə gətirib çıxaran fasilitasiya/mediasiya, birgə fakt araşdırması və digər həll yolları daxil ola bilər. Problemin həllinə dair bu kimi yanaşmaların əsas məqsədi şikayət

[7] CAO-nun rolu və işi ilə bağlı daha ətraflı məlumat üçün Əməliyyat Təlimatına bax: http://www.cao-ombudsman.org/documents/CAOOperationalGuidelines_2013.pdf

predmeti olan, habelə qiymətləndirmə və ya mübahisənin həlli prosesində müəyyən edilmiş hər hansı digər məsələlərin hər iki tərəf üçün məqbul həllidir.[8]

VƏ YA

**Komplayns qiymətləndirməsi/tədqiqat:** Tərəflər Komplayns prosesini seçərsə, CAO-nun Komplayns funksiyası BMK/MİGA-nın fəaliyyətinin layihə ilə bağlı olduğu müəyyən edilməsi məqsədilə onların ətraf mühit və sosial məsələlər üzrə əməletmənin qiymətləndirməsini aparacaq. Qiymətləndirmə maksimum 45 iş günü çəkə bilər. Əgər araşdırma özünü doğruldarsa, CAO Komplayns funksiyası BMK/MİGA-nın fəaliyyətini dərindən araşdırmağa başlayacaq. Aşkar edilmiş uyğunsuzluqlarla və BMK/MİGA-nın cavabı ilə birlikdə araşdırma hesabatı ictimaiyyətə açıq olacaqdır.

Mərhələ 5: **Monitoriq və izləmə**

## 5. MƏRHƏLƏ 6: YEKUN/İŞİN BAĞLANMASI

[8] Əlaqəli tərəflər razılaşdırılmış vaxt çərçivəsində əməkdaşlıq prosesi ilə məsələlərin həllinə nail olmadıqda, CAO-nun Mübahisənin Həlli funksiyası ilk olaraq əlaqəli tərəflərə dalan vəziyyətindən çıxmağa köməklik göstərəcək. Bu mümkün olmadıqda, Mübahisənin Həlli qrupu BMK/MİGA heyəti, Dünya Bankı Qrupunun Prezidenti və İdarə Heyəti və ictimaiyyət daxil olmaqla əlaqəli tərəfləri Mübahisənin Həlli funksiyasının şikayəti bağlayaraq baxılması üçün CAO Komplayns funksiyasına ötürdüyü barədə məlumatlandıracaqdır.